## VALİDEYNLƏR NƏ ETSİNLƏR Kİ, ONLARIN ÖVLADLARI NARKOMAN OLMASINLAR?

- Bədbəxtçiliyin qapınızı döyməsini gözləməyin. Müvafiq ədəbiyyat tapıb narkomaniya mövzusunda övladınızla söhbət etməyə vaxt ayırın;
- Ailənizdə məhəbbət, inam və təhlükəsizlik atmosferi yaradın. Verdiyiniz sozlərə əməl edin, övladınızın qayğısı və problemləri, onun daxili aləmi ilə maraqlanın;
- Yeniyetmədə sərbəst qərar verə bilmə vərdişlərini, şəxsi təşəbbüsü, baş verənlərə fərdi münasibəti inkişaf etdirin;
- Yeniyetməyə çətinliklərin və uğursuzluqların öhdəsindən gəlməyi öyrədin və mənfi təcrübənin də gərəkli olduğunu ona bildirin;
- Yeniyetməyə ətraf aləmin gözəlliklərini görməyi və anlamağı, gündəlik həyatdan zövq almağı (təbiətdən, kitablardan, maraqlı insanlarla ünsiyyətdən və s.) öyrədin;
- Narkotikdən heç zaman istifadə etməmək qərarını övladınızın öz öhdəsinə verin. Sizin rolunuz qadağanedici deyil, məsləhətverici, istiqamətləndirici və məlumatlandırıcı olmalıdır.

## ÖVLADINIZA BİLDİRİN Kİ:

- Narkotiklərdən alınan "həzz"in ardınca ağır fiziki əzablar başlayır;
- Fiziki sağlamlıq ciddi şəkildə pozulur;
- Zehni qabiliyyət kəskin surətdə azalır;
- QİÇS və başqa infeksion xəstəliklərə yoluxma riski artır;
- Cinsi potensiya azalır və yox dərəcəsinə enir;
- Yeniyetmə gələcəkdən məhrum olur.

## VALİDEYNLƏR!

**Özünüzə bu sualı verin:**

**"Övladımın narkoman olmaması üçün mən nə etmişəm?"**

**və elə indicə hərəkət etməyə başlayın!**

Buklet "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planına uyğun olaraq Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap olunmuşdur.



## ÖVLADLARINIZI NARKOTİKLƏRİN OYUNCAĞINA ÇEVRİLMƏKDƏN QORUYUN!

# HÖRMƏTLİ VALİDEYNLƏR!

## NARKOMANİYA -

sonu **ölümlə** nəticələnən **xəstəlikdir.**

Narkomanın **həyatının davametmə müddəti** narkotik istifadə etməyə başladığı vaxtdan orta hesabla **5-7 il təşkil edir.**

## NARKOMANİYA -

narkotiklərdən **psixi** və **fiziki** asılılıqdır.

Narkoman narkotiklərsiz **yaşaya bilmir.**

Narkotiklər onun orqanizmində maddələr mübadiləsinin bir hissəsinə çevrilir.

**Çoxları iradələrinin möhkəmliyinə arxalanıb belə zənn edirlər ki, narkotik dadıb sonra da ondan əl çəkə bilərlər. Lakin narkotik insandan daha güclüdür və onu tam ələ alır.**

## UŞAQLARDA NARKOMANİYANIN ƏLAMƏTLƏRİNİ NECƏ MÜƏYYƏN EDƏ BİLƏRSİNİZ?

**Yeniyetmənin davranışında yaranmış gözlənilməz dəyişikliklərə diqqət yetirin:**

- aktivliyinin kəskin şəkildə artması və ya azalması;
- təhsilə və başqa maraqlara həvəsinin itməsi, dərs buraxmaları;
- izahedilməz əsəbiliyi, yalan danışması, fikir dağınıqlığı;
- şübhəli tanışlarının peyda olması, ətrafındakı dostların qısa müddətdə dəyişməsi;
- davranışında gizlilik, harada olduğu barədə məlumat verməməsi;
- qeyri-adi vəziyyətdə evə gec dönməsi;
- səhərlər yuxudan çətin oyanması, anlaşılmaz danışığı;
- iştahasının itməsi, çəkisinin azalması, yuxululuğu.

**Yadda saxlayın ki, narkotiklərdən istifadə etmənin bu əlamətlərindən bəziləri yeniyetmələrin davranışlarında olan xarakterik xüsusiyyətlərə uyğun gəlir.**

### BUNLARA DİQQƏT VERMƏLİSİNİZ:

- evdən pul və ya qiymətli əşyaların itməsi;
- cib xərcliyi üçün tələb olunan pulun miqdarının artması;
- yeniyetmədə dərman maddələrinin, şprislərin, ampulaların, yapışkan tübiklərinin olması;
- yeniyetmənin qeyri-adi qoxusu, paltarlarında ləkələr, bədənində izlərin olması.

### MƏNFİ AİLƏ MÜNASİBƏTLƏRİ YENİYETMƏNİ NARKOTİKLƏRDƏN İSTİFADƏ ETMƏYƏ GƏTİRİB ÇIXARAN ƏSAS SƏBƏBLƏRDƏNDİR:

- özünə qiymətvermənin aşağı düşməsi və ya həddən artıq olması;
- həyatda aydın məqsədin olmaması, özünə və öz sağlamlığına qayğının olmaması;
- ailədə məhəbbət və dəstəyin çatışmaması;
- uşaq vaxtı aldığı psixi travma nəticəsində yaranan ümidsizlik, emosional ağrı;
- valideynlər tərəfindən həddən artıq himayəçilik, uşaqlarda sərbəst qərar vermə imkanının olmaması;
- təsir altına düşməyə meyilli olması;
- streslərə davamlılıq qabiliyyətinin aşağı olması, çətinliklərin öhdəsindən gələ bilməməsi;
- gündəlik həyatdan zövq ala bilməməsi;
- mənəvi dəyərlərin olmaması.